# Milli Kitabxanada "Firidun bəy Köçərli-155" sərgisi

Yanvarın 25-də M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında görkəmli ədəbiyyatşünas alim, Azərbaycan uşaq ədəbiyyatının inkişafında mühüm xidmətləri olan Firidun bəy Köçərlinin anadan olmasının 155 illiyi münasibətilə kitab sərgisi açılıb.




Kitabxanadan AZƏRTAC-a bildirilib ki, "Firidun bəy Köçərli-155" adlı sərgidə ədibin əsərləri, "Ön söz" yazdığı, görkəmli ədəbiyyatşünasın həyat və yaradıcılığı haqqında yazılmış kitablar, qəzet və jurnal məqalələri yer alıb.

Sərgiyə baxış sərbəstdir.